# Möhtəşəm tarixin başlanğıcı

## Müxalifət partiya liderləri Milli Qurtuluş Gününü Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri kimi qiymətləndirirlər

Bu gün Milli Qurtuluş Günüdür. 30 il öncə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı bu böyük bəladan qurtaran dahi şəxsiyyət Heydər Əliyev həm də xalqın xilaskar liderinə çevrildi.

Dövlətin parçalanma təhlükəsi ilə üzləşdiyi, vətəndaş müharibəsinin baş verdiyi bir vaxtda Heydər Əliyev çox çətin missiyanı üzərinə götürərək Azərbaycanı tənəzzüldən tərəqqi yoluna çıxardı.

Milli Məclisdə təmsil olunan müxalifət partiyalarının sədrləri Milli Qurtuluş Günü ilə bağlı fikirlərini bizimlə bölüşüblər.

### Ömrünü xalqın xoşbəxtliyinə həsr edən şəxsiyyət

Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı bildirib ki, Milli Qurtuluş Günü təkcə müasir dövrün deyil, həm də bütövlükdə Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.

Deputat qeyd edib ki, hər bir millətin istiqlalı və müstəqil dövlət qurması onun milli kimliyinin başlıca məqsədi və amalıdır. Bu niyyətə çatdıqdan sonra müstəqilliyi qoruyub saxlamaq və milli dövlətçiliyi qurmaq da onun əldə olunması qədər çətin və mürəkkəb prosesdir. Bunu ancaq tarixi yaradanlar, müstəsna istedadı olan və seçilmişlərin içərisindən olan tarixi şəxsiyyət həyata keçirə bilər.

Partiya sədri deyib ki, ötən əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində Azərbaycan xalqının meydanlarda qoyduğu iradə və dünyada gedən proseslər dövlətimizin müstəqilliyinin reallaşması ilə nəticələndi: "Milli dövlətçiliyin yaradılması üçün olduqca tarixi, nadir şanslarından birini qazandıq. Xalqın iradəsi birmənalı idi. Xalq öz dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək əzmində idi. Lakin xalqın istənilən situasiyalarda olduğu kimi, belə bir çətin vəziyyətdə də arzu və istəklərini reallaşdırmaq üçün onun önündə gedən liderlərin əməllərindən, onların bacarığından xeyli məsələ asılıdır. Əslində bunu reallaşdıran liderlərdir. Təəssüflər olsun ki, əldə etdiyimiz müstəqillik və qurmaq istədiyimiz dövlətçilik həmin zaman kəsiyində olduqca naşı, səriştəsiz, dövlətçilik haqqında təsəvvürü, təcrübəsi olmayan, populist və daha çox hərisçi Xalq Cəbhəsinin əlinə keçdi. Onlar xalqın etimadı üzərində hakimiyyətə gəlsələr də, xalqın etimadını itirərək, hakimiyyət dayaqlarını sona çatdıraraq ölkəni olduqca çıxılmaz duruma saldılar".

F.Ağamalının sözlərinə görə, 1993-cü ilin əvvəllərinə qədər idarəolunmaz durumda olan Azərbaycanda xaos, anarxiya hökm sürüb. İqtisadi, sosial, siyasi və hərbi böhran Azərbaycanı fəlakətli vəziyyətə salıb. Belə ağır vəziyyətdə Moskva özünün canişini olan Ayaz Mütəllibovu yenidən hakimiyyətə gətirmək üçün Rusiya kəşfiyyat orqanlarının təsiri altında olan Surət Hüseynovu, Rəhim Qazıyevi, Əlikram Hümbətovu "hərəkətə keçirib". Onların hər biri özünəməxsus şəkildə "funksiyasını" yerinə yetirməyə başlayıblar. Beləliklə, Azərbaycan həm də parçalanma təhlükəsi ilə üz-üzə qalıb.





Belə çətin anda Azərbaycan xalqının müdriklik nümayiş etdirərək bir daha üzünü Naxçıvana yönəltdiyini deyən partiya sədri əlavə edib ki, xalq ayağa qalxaraq ölkəni belə ağır situasiyadan çıxarmaq üçün yeganə yolun Heydər Əliyevin Bakıya dəvət edilməsi və onun siyasi hakimiyyətin ali pilləsində təmsil olunması iradəsini ortaya qoyub: "Xalqımız 1993-cü il iyunun əvvəlində ayağa qalxaraq Heydər Əliyevin Bakıya dəvət olunması ilə bağlı daha kəskin, ciddi iradəsini ortaya qoydu. Ulu Öndər iyunun 9-da Bakıya gəldi. Sonra Gəncəyə getdi, vəziyyətlə tanış oldu və iyunun 15-də Azərbaycan xalqının iradəsinə söykənərək olduqca çətin bir yükü, missiyanı öz çiyinlərinə götürmək razılığını verdi".

Fəzail Ağamalı deyir ki, Ümummilli Lider Ali Sovetin Sədri seçildikdən sonra xalqın seçimində yanılmadığı bəlli oldu. Çünki hər kəsə bəlli oldu ki, əgər Ulu Öndər belə bir məsuliyyəti çiyninə götürdüsə, deməli, çətin vəziyyəti aradan qaldıracaq. Azərbaycan düşmüş olduğu fəlakətli durumdan xilas ola biləcək. Doğrudan da, bütün bunlar reallaşdı.

1993-cü ilin oktyabrında keçiriləcək prezident seçkilərinə qədər Ulu Öndər mövcud situasiyanı tamamilə düzgün həll edərək proseslərin gedişini ələ alıb böyük ustalıqla vəziyyəti tədricən nizama gətirib. Seçkilərdə isə xalqın mütləq əksəriyyətinin etimadını qazanıb ali kürsüyə qalxdıqdan sonra Ümummilli Lider Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, milli dövlətçiliyi yaratmaq üçün görünməmiş fədakarlıq nümayiş etdirib. Bu gün Azərbaycan xalqı onun nəticələrini görür.

Partiya sədri vurğulayıb ki, bugünkü Azərbaycan Ulu Öndərin qurduğu, yaratdığı dövlətin üzərində yüksəlir. Onun təməl prinsiplərinə, siyasi irsinə əsaslanan Prezident İlham Əliyev Ümummilli Liderin vəsiyyətlərini yüksək səviyyədə həyata keçirərək Azərbaycanı dünyanın ən parlaq ölkələrindən birinə çevirib.

### Qurtuluş missiyası uğurla həyata keçdi

Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli bildirib ki, zaman keçdikcə Heydər Əliyevin Azərbaycan tarixində xüsusi rolu, quruculuq missiyası daha çox görünür.

Deputatın fikrincə, əgər Ulu Öndər olmasaydı, "Əsrin müqaviləsi"ni bağlamaq, hərbi müxalifəti aradan qaldırmaq, böyük dövlətlərin Azərbaycana marağını təmin etmək, cənubda və şimalda başlayan separatçılıq hərəkətlərinin qarşısını almaq olmazdı. Bütün bunları nəzərdən keçirəndə Heydər Əliyevin missiyasının nə qədər böyük olduğunu daha aydın görmək olur.

Partiya sədri qeyd edib ki, şəxsiyyətin tarixdə rolu çox böyük olur. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan çox ağır durumdan xilas ola bilib. Dünyada Heydər Əliyevin böyük dövlət xadimi kimi tanınması, onun şəxsiyyəti bu işdə yardımçı olub: "Həqiqətən Heydər Əliyevlə hesablaşırdılar, fikirlərini nəzərə alırdılar. Bu gün ordumuzun böyük zəfəri məhz Heydər Əliyevin əsasını qoyduğu iqtisadi güc nəticəsində mümkün olub. Ən əsası, "Əsrin müqaviləsi" bağlandı və Azərbaycan xilas oldu. Təbii ki, öz iqtisadiyyatını qurandan sonra hərbi, siyasi dividendlər əldə etdi. O da bugünkü müvəffəqiyyətimizin əsasıdır. Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu davam etdirərək Qarabağımızı işğaldan azad etdi. Son bir neçə yüz ildə ilk qalib sərkərdə olaraq adını tarixə yazdırdı".

Deputat vurğulayıb ki, Heydər Əliyevin Bakıya gəlişindən sonrakı fəaliyyəti qurtuluş missiyası idi: "Bu, Azərbaycanı bəladan qurtarmaq missiyası idi ki, onu da çox uğurla həyata keçirdi. Nə yaxşı ki, o zaman xalq Ulu Öndərin gəlişini tələb etdi və hakimiyyət də gətirməyə məcbur oldu. Beləliklə, Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 15 iyun.- S.9.